AZƏRBAYCAN

16 3 sentyabr 2024-cü il RƏSMİ DÖVLƏT QƏZETİ

# "Paris-2024": Azərbaycanın daha bir idmançısı Paralimpiya çempionudur

**Azərbaycan paraatleti Səid Nəcəfzadə "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanıb.**

AZƏRTAC xəbər verir ki, T12 kateqoriyasında çıxış edən idmançı uzunluğa tullanma üzrə yarışda qüvvəsini sınayıb.

7,27 metr nəticə göstərən S.Nəcəfzadə paralimpiya çempionu adına yiyələnib.

Paraüzgüçü Raman Saley (S13 kateqoriyası) isə 50 metr məsafəyə sərbəst üsulla üzmədə finala yüksələ bilməyib.



Qeyd edək ki, hazırda Azərbaycan millisinin aktivində üç medal var. Parataekvondoçulardan İmaməddin Xəlilov (K44 kateqoriyası, 70 kiloqram) Paralimpiya çempionu olub, Raman Saley (S12 kateqoriyası, 100 metr məsafəyə arxası üstə üzmə) gümüş, Sabir Zeynalov (K44 kateqoriyası, 58 kiloqram) bürünc medal qazanıb.